# May ayında Qərbi Avropadan iki dəfə çox qonaq

2019-cu ilin may ayı Azərbaycanda turizmin ən uğurlu aylarından biri hesab oluna bilər. May ayı üzrə demək olar ki, bütün ölkələr və bölgələr üzrə səyahətçi sayının artması müşahidə olunur. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə Azərbaycanı 246 min və ya 18% daha çox xarici vətəndaş ziyarət edib. Bu artımın ən böyük hissəsi Rusiya (11 min), Gürcüstan (10 min) və Qərbi Avropa (8.9 min) ölkələrinin payına düşür.

Qərbi Avropa regionu Azərbaycanın turizm statistikasında daim öndə olan digər ölkələri xeyli dərəcədə geridə qoyaraq 2 dəfə artıb (102%). Bu göstərici böyük ehtimalla mayın 29-da UEFA kubokunun finalını izləməyə gəlmiş futbol sevərlərin Bakıya axınının nəticəsində baş verib. Belə ki, Böyük Britaniyadan gələnlərin sayı 7600 nəfər və ya 230%, Almaniya və İtaliyadan gələnlərin sayı isə 2700 və 1400 nəfər və ya müvafiq olaraq 58% və 37% artıb. Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında (58% və ya 4 min nəfər) da əhəmiyyətli dərəcədə artım müşahidə olunub.

**Qrafik 1: 2019 və 2018-ci ilin may ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Şəkil 1-də göstərildiyi kimi, Türkiyə, Cənubi Asiya və İrandan gəlmiş qonaqların artımı müvafiq olaraq 9%, 10% və 12% təşkil edir. İsrail istisna olmaqla, Yaxın Şərq ölkələrinin demək olar ki, hamısında azalma müşahidə olunur. Yekun olaraq may ayında İsraildən gələnlərin sayı 40% artaraq 4.7 min nəfərə çatıb.

2019-cu ilin yanvar-may aylarında Azərbaycana gələn xarici səyahətçilərin ümumi sayı 2018-ci ilin eyni dövrünə nisbətdə 4% artıb. Qonaqların əksəriyyəti Rusiya (311 min) və Gürcüstandan (284 min) gəlib ki, sonuncu üzrə artım 52 min nəfər və ya 23% təşkil edib. Cənubi və Mərkəzi Asiya, həmçinin Qərbi Avropa regionları ölkələrinin hər birindən 11 min səyahətçi gəlib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 41%, 38% və 29% artım deməkdir.

Ən böyük azalma İran vətəndaşları arasında müşahidə olunub - 2018-ci ilin eyni dövrü ilə müqayisədə ölkəmizə 43 min nəfər və ya 34% az iranlı qonaq gəlib. Yaxın Şərq bölgəsindən səyahət edənlərin sayında 13 min nəfər və ya 12% azalma müşahidə olunub ki, bu azalma İraq, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Küveyt üçün müvafiq olaraq 35%, 35%, 23% və 18% təşkil edib. Türkiyədən gələnlərin sayı isə 119 min nəfər olmaqla, demək olar ki, dəyişməz qalıb.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-may ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin may ayında və 2019-cu ilin yanvar-may aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | May | Yanvar-May | May | Yanvar-May |
| Rusiya | 80 124 | 311 535 | 69 008 | 308 464 |
| Gürcüstan | 56 975 | 284 208 | 46 333 | 231 619 |
| Türkiyə | 25 687 | 119 715 | 23 590 | 119 253 |
| Qərbi Avropa | 17 532 | 47 375 | 8 682 | 36 740 |
| İran | 15 822 | 84 019 | 14 118 | 126 902 |
| Mərkəzi Asiya | 11 815 | 42 289 | 7 458 | 30 567 |
| Şərqi Asiya | 10 708 | 37 462 | 8 923 | 36 883 |
| Yaxın Şərq | 9 428 | 97 563 | 15 340 | 111 010 |
| Cənubi Asiya | 7 240 | 36 319 | 6 557 | 25 758 |
| Şimal-Şərqi Asiya | 5 170 | 12 663 | 3 121 | 8 192 |
| Amerika | 3 000 | 10 131 | 2 755 | 9 349 |
| Cənub-Şərqi Asiya | 1 015 | 3 976 | 795 | 3 527 |
| Digərləri | 969 | 3 049 | 734 | 2 429 |
| Afrika | 585 | 3 668 | 565 | 3 179 |
| **CƏMİ** | **246 070** | **1 093 972** | **207 979** | **1 053 872** |